# “ORUCOV QARDAŞLARI” NƏŞRİYYATI

UOT 002



**İSAYEVA GÜLSÜM QUBAD QIZI**

*Bakı Dövlət Universiteti Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının I kurs tələbəsi*

**Açar sözlər:** Orucov qardaşları nəşriyyatı, Oruc, Abuzər, Qənbər, mətbəə, nəşriyyat, çap kitabları.

**Ключевые слова:** Издательство братьев Оруджевых, Орудж, Абузар, Ганбар, типография, издательства, печатные книги.

**Key words:** Orujov Brothers Publishing House, Oruj, Abuzar, Ganbar, printing house, publishing houses, printed books.

XX əsrin əvvəllərində Bakıda təşkil olunmuş çap müəssisələrindən biri də Oruc, Qənbər və Abuzər qardaşlarının yaratdığı elektrik mətbəə-nəşriyyatı idi. Digər mətbəələrdən fərqli olaraq “Orucov qardaşları” mətbəəsi də elektriklə işləyirdi. Ona görə də bu mətbəənin çap etdiyi kitabların üzərində “Orucov qardaşlarının elektrik mətbəəsi” yazılırdı.

Bərdənin Alpout kəndində dünyaya göz açmış Oruc, Qənbər və Abuzər Orucov qardaşları dövrün təhsilli, savadlı, maarifçi ziyalıları kimi hörmət qazanmışdılar. Tiflisdə, Gəncədə, Rusiyada yüksək təhsil almışdılar. Rus, ərəb və fars dillərini mükəmməl bilmələri onların tərcüməçi və redaktor işləmələrinə imkan vermişdi.

Oruc Orucov kənd mollaxanasında oxumuş, Yelizavetpol (Gəncə) Mixail sənət məktəbini bitirmişdi. Oruc Orucov 1896-cı ildə Bakıya köçərək ticarətlə məşğul olmuşdu. Oruc Orucov “Nicat” Müsəlman Xeyriyyə Cəmiyyətində Təftiş Komissiyasının üzvü və xeyriyyə işlərində Hacı Zeynalabdin Tağıyevin köməkçisi idi. O, 1917-ci ildə Ədib və Mühərrirlər Cəmiyyətinin Milli Təşkilat Komitəsinə üzv seçilmiş altı nəfərlik mühərrirlər heyətinin ( Məhəmməd Əmin Rəsulzadə, Seyid Hüseyn, Ceyhun Hacıbəyli, Hacı İbrahim Qasımov, Əli Paşa Hüseynzadə, Oruc Orucov) tərkibinə də daxil edilmişdi.

Abuzər Orucov isə görkəmli dövlət xa-

dimləri: Nəriman Nərimanov, Dadaş Bünyadzadə, Ruhulla Axundovla dostluq etmişdi.

Orucov qardaşları 1905-ci ildə atalarının və yaxın dostlarından olan Əhməd bəy Ağayevin tövsiyəsi ilə Bakıya köçərək burada böyük mətbəə təşkil edib çap işinə başlamışdılar.

Mənbələrin təsdiqlədiyinə görə, "Orucov qardaşları" mətbəəsi 1905-ci ildə təşkil olunmuş, lakin 1906-cı ildən fəaliyyətə başlamışdır. Mətbəə keçmiş Nikolayevski, indiki İstiqlal küçəsində Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə məxsus binada yerləşirdi. Yer kirayəsi kimi Orucov qardaşları hər il məktəbi bitirən məzunlara nəfis şəkildə nəşr olunmuş "Qurani-Kərim" kitabı hədiyyə edirdilər.

Mətbəənin işlərini Abuzər Orucov idarə edirdi. Oruc Orucov ümumi rəhbərliyi, rəsmi işləri öz üzərinə götürmüşdü. Qənbər Orucov isə çap olunan kitabların rayonlardakı mağazalarda satışı ilə məşğul olurdu.

"Orucov qardaşları" mətbəəsi öz dövrünə görə yüksək texniki avadanlıqla təchiz edilmişdi. Mətbəənin bütün avadanlığı, çap maşınları Almaniyadan gətirilmişdi. Burada çap və tərtibat işində istifadə olunan "Mille" markalı ən böyük özüyığan maşın, "Frankental", "Agzburg", "Amerikanka" markalı çap maşınları, kağıztikən və kağızkəsən maşınlar vardı. Bəzi mənbələrə görə, 1906-cı ilin yazında Oruc Orucov mətbəəyə Varşavadan çap maşını gətirmişdi.

Mətbəədə ərəb (əski Azərbaycan), rus, gürcü, latın şriftlərinin olması müxtəlif dillərdə kitab çapına imkan yaradırdı. Mətbəədə "Günəş", "Həqiqət", "Yeni Həqiqət", "Kəlniyyət", "Asari Həqiqət", "Bəsirət", "Məlumat" və başqa qəzet və jurnallar da çap olunurdu.

Mətbəədə çap olunmaq üçün təqdim edilən siyasi ədəbiyyatın nəşrinə Mətbuat işləri üzrə Tiflis Komitəsi icazə verməli idi.

"Orucov qardaşları" mətbəəsi 1907-1914-cü illərdə Əbdürrəhman bəy Haqverdiyevin hekayələri, "Ac həriflər" və "Xəyalat" əsərlərini, Abbas Səhhətin "Yoxsulluq ayıb deyil", "Məğrib günəşi", "Sınıq saz" əsərlərini, Abdulla Şaiqin "Uşaq gözlüyü", "Gülzar" əsərlərini, Nəriman Nərimanovun "Nadanlıq", "Nadir şah", "Şamdan bəy" dramlarını, Yusif bəy Çəmənzəminlinin əsərlərini və başqalarının əsərlərini çap etməklə milli kitab sərvətimizi zənginləşdirmişdir. Orucov qardaşları mətbəəsi eyni zamanda dünya ədəbiyyatından tərcümələri də nəşr edirdi. Məsələn, Lev Tolstoyun "İnsana çoxmu yer lazımdır?", "Rəhmanamı, yoxsa şeytanamı sitayiş etməli", Daniel Defonun "Robinzon Kruzonun hekayəti", Mark Tvenin "İyirmi beş milyonluq çek", Curci Zeydanın "Ərmənusə", "Kərbəla yanğısı", Armin Vamperin "Əmir Teymur", Jan Batist Molyerin "Zorən təbib" və başqa yazıçıların əsərlərinin Azərbaycan dilində tərcümələri Orucov qardaşları mətbəəsində çap olunmuşdu.

"Orucov qardaşları" mətbəəsində dini ədəbiyyatın nəşri də mühüm yer tuturdu. Məsələn, "Kitabi şəriyyət", "Sədd kəlmeyi əmirəl möminin əleyhissalam", "Tarixi müqəddəsi əlmiya əleyhissalam" və s.

Kitab çapı ilə bərabər, onun təbliğinə böyük əhəmiyyət verən Orucov qardaşları Mirzəağa Əliyevin "Ziya" kitabxanasının kataloqunu da buraxmışdılar.

Kitab nəşri sahəsində uğur əldə edən qardaşlar qəzet və jurnallar da nəşr etmişlər. Bunlardan "İqbal", "Yeni İqbal", "Babayi-Əmir", "Kəlniyyət", "Tuti" və digərlərini qeyd etmək olar.

Orucov qardaşları mətbəəsinin yazıçı-publisist, Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəyovun əsərlərini nəşr etməsi sahəsində də xidməti olmuşdu. Nəşriyyat 1907-ci ildə Üzeyir Hacıbəyovun tərtib etdiyi, redaktoru Məhəmməd Əmin Rəsulzadə olan "Mətbuatda istifadə edilən siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin "Türki-rusi və rusi-türki lüğəti" və "Hesab məsələləri" kitabını nəşr etmişdi.

Orucovlar 1914-1915-ci illərdə Üzeyir Hacıbəyovun "Arşın mal alan", "Harun və Leyla", "Əsli və Kərəm", "O olmasın, bu

olsun" əsərlərini nəşr etməklə Azərbaycan musiqisinə böyük xidmət göstərmişlər.

"Təkamül" qəzeti redaksiyasının fəaliyyəti nəticəsində 1907-ci ilin iyununda "Orucov qardaşları" mətbəəsində "Nə tövr fəhlələr özlərinə ittifaq qayirməlidirlər? (həmkarlar ittifaqı barəsində)" adlı kitabça çap olunub. Kitabça xalis inqilabi təbliğat xarakterli olduğuna görə, çapa hazırlanan başqa inqilabi ədəbiyyat haqqında da orada məlumat verilmişdi. Onlar oxucuları "Fəhlə sinfinə nə tövr azadlıqlar gərək" adlı kitabçanın çap ediləcəyindən xəbərdar etmişlər. Bu kitabı nəşr etdirmək üçün O.Orucov 1907-ci ildə mətbuat işləri üzrə Tiflis Komitəsinə göndərdiyi teleqramla icazə də almışdı.

"Fəhlə sinfinə nə tövr azadlıqlar gərək" adlı kitabçanın kəskin siyasi, inqilabi məzmunda olması polis idarələrini və hökuməti təşvişə salmışdı. Onlar əvvəlcə kitabın 2000 tirajla çap olunmuş nüsxələrini müsadirə etmişdi. Lakin hökumət dairələri müsadirə ilə kifayətlənməmiş, 1907-ci ildə Tiflis Məhkəmə Palatası kitabın bütün 2000 nüsxəsini məhv edilməsi haqqında qərar çıxarmışdı. Həmin kitabın bir nüsxəsi hazırda Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivində saxlanılmaqdadır.

Nəşriyyatın avadanlığı Bakı Xalq Komissarlığı tərəfindən müsadirə edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918-ci ilin sentyabrında Bakıya köçdükdən sonra nəşriyyat dövlət mülkiyyətinə keçirilmişdi. Bununla bağlı olaraq, "Orucov qardaşları" mətbəə-nəşriyyatı Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti qarşısında iddia qaldırmışdı. Hökumət "Orucov qardaşları" nın mətbəə avadanlığının dövlət nəşriyyatı üçün alınması barəsində Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti qarşısında məsələ irəli sürür. Bu məsələ Parlamentin 1919-cu ilin martın 20-də keçirilən 25-ci iclasında müzakirə olunur. Plan-büdcə komissiyasının üzvü Məmməd Əmin Rəsulzadə məruzə ilə çıxış edərək, mətbəə texnikasının son nailiyyətləri ilə təchiz edilmiş "Orucov qardaşları" nəşriyyatının 1918-ci ilin martında bolşevik-daşnak ağalığı zamanı talan olduğunu göstərmişdir. Məruzəçi bildirmişdi ki, Cümhuriyyət Hökuməti Bakıya köçdükdən sonra mətbəənin çoxlu avadanlığı hökumətin əlinə keçmişdi. Xalq Maarif Nazirliyinin məlumatına görə, Orucov qardaşlarına məxsus çap makinaları, hürufatları hazırda hökumət mətbəəsindədir. Orucov qardaşları ötən ilin mart soyqırımı hadisələrindən əvvəl mətbəəni iranlılara satmaq istəmiş və o vaxt iranlılar onlara yarım milyon rubl təklif etmişlər. Mütəxəssislərin hesablamalarına görə, hökumət mətbəəsində olan "Orucov qardaşları" mətbəəsinə məxsus avadanlıq 468380 manat məbləğində dəyərləndirilmiş, həm plan-büdcə komissiyası, həm də mətbəə sahibləri bu qiymətlə razılaşmışdır.

**Ədəbiyyat**

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, «Lider nəşriyyat», 2005, 472 səh

2. https://az.wikipedia.org/wiki/Orucov_Qarda%C5%9Flar%C4%B1_M%C9%99tb%C9%99%C9%99_N%C9%99%C5%9Friyyat%C4%B1

**Гюльсум Исаева**

## Издательство "Братьев Оруджевых"

**Резюме**

В статье автор рассмотрел историю издательства "Братьев Оруджевых" и провел некоторые исторические исследования. Известно, что издательство братьев Оруджевых было создано братьями Оруджем, Абузаром, Гамбаром.

В общем, в статье дается некоторая информация о типографии братьев Оруджевых.

**Gulsum Isaeva**

## "Orujov Brothers" Publishing House

**Summary**

In the article, the author reviewed the history of the publishing house of the Orujov brothers and conducted some historical research. It is known that the publishing house of the Orujov brothers was created by the brothers Oruj, Abuzar, Gambar.

In general, the article gives information about the printing house of the Orujov brothers.